## ONUN GÖZLƏRİ...

Tehran şəhərinə boğucu bir vəziyyət hakim idi. Heç kəsin nəfəsi eşidilmirdi. Hamı bir-birindən qorxurdu. Ailələr öz üzvlərindən, uşaqlar müəllimlərindən, müəllimlər xidmətçilərdən, xidmətçilər bərbər və kisəçidən, bir sözlə, hər kəs özündən və hətta öz kölgəsindən qorxurdu. İnsanlar hər bir yerdə – evdə, idarədə, məsciddə, tərəzi arxasında, məktəbdə, universitetdə və hamamda polis məmurlarının onları təqib etdiyini düşünürdü. Klubda Şahənşahlıq himni oxunarkən hər kəs öz ətrafına baxırdı ki, birdən hansısa bir dəli və ya öz canından bezmiş ayağa qalxmaz və buna görə də hamının başının ağrımasına səbəb ola bilərdi. Bütün ölkəyə sanki ölüm sükutu hakim idi. Hər kəs özünü razı kimi göstərirdi. Qəzetlərin isə diktatoru tərifləməkdən başqa yazmağa bir sözləri yox idi. Xalq xəbərə susamışdı və gizlincə çox mənasız və yalan xəbərlər paylaşırdılar. Kimin açıq-aşkar şəkildə filan şeyin pis olduğunu söyləməyə cürəti çatırdı ki? Heç Şahənşah ölkəsində də nəsə pis bir şey ola bilərdimi?

İnsanların kədəri, halsızlığı, pis gümanda olması və ümidsizliyi bazar və küçələrdə də müşahidə edilirdi. İnsanlar küçədə öz ətrafına baxmaqdan belə qorxur,

kiminsə onlara qarşı pis fikrə düşməsindən ehtiyat edirdilər.

Yanar günəş Tehran şəhərinin küçələrini dözülməz bir hala gətirmişdi. Heç şəhər merinə "Fərəng" xiyabanlarında ağac olmadığı xəbərinin kimin tərəfindən məlumat verildiyi də aydın deyildi. Əllərinə balta və mişar alıb köhnə ağacları kəsir, dar küçələri dağıdıb məhəllələrin quruluşunu sökür və xalqı evsiz-eşiksiz qoyurdular. Bu qarışıqlıqda müəyyən bir evin tikilməsi isə illərlə çəkirdi. Əlbəttə, bu arada tikilib istifadəyə verilən evlər zəif və davamsız olurdu. Bütün ölkə boyu həbsxanalar tiksələr də, yenə də həbsxana qıtlığı yaşanırdı. Ölkənin şərqi və qərbindən, eləcə də şimalı və cənubundan qoca və kəndli uşaq, molla, rəiyyət, baqqal, hamamçı və hovuz suyu çəkənləri yuxuda diktator rejiminin süqut etdiyini arzuladıqlarına görə həbs edib zindanlara atmışdılar. Həm məktəb şagirdini, həm naziri, həm də millət vəkilini həbs edirdilər. Bir nəfəri bərbərxanada olarkən Fransa qəzetlərindən birində Şahla bağlı yayımlanmış hansısa bir karikatura barədə danışması ittihamı ilə, digərini Avropaya səfəri zamanı bir xarici dövlətin nümayəndələri ilə görüşdüyünə görə, digərini isə ölkənin cənub bölgəsinin neft səhmlərini dövlətdən gizlincə britaniyalı sərmayədarlara satdığına görə həbs edirdilər.

Belə bir vəziyyətdə 1317-ci ildə[1] Makan ustad vəfat etdi. O, son yüz il ərzində İranın ən böyük rəssamı idi. Hamı onu yüksək sənətinə görə "ustad" deyə çağırırdı. Neçə əsrdən sonra yenə də bir İran rəssamının əsərləri

[1] Miladi təqvimi ilə 1938-ci il (Mütərcim).

Avropada özünə müştəri tapmış, Avropa və Amerikanın incəsənət jurnalları isə onun əl işlərini çap edirdilər.

Onu məktəbə və müxtəlif məclislərə ilk dəfə daxil olarkən xüsusi coşqu ilə alqışlayanlardan yalnız çox az bir zümrə onunla həmrəylik nümayiş etdirə bilirdi. Gizlində müəyyən şəxslər Makan ustad diktator rejimlə mübarizə aparmağa cəsarət və cürəti çatan biri olduğunu qəbul edirdilər. Hətta onun haqqında müəyyən dastanlar danışır və belə deyirdilər: "O heç bir məhrumiyyətdən qorxmadı və heç bir şeyə də ürək bağlamadı. Rəssamlıqdan başqa heç bir şeyə bağlı deyildi. Diktator rejiminin polis qüvvələrinin təzyiqləri onun belini əyə bilmədi. Təhdidlər onun vücudunda təsirə malik deyildi. Onun maaşını kəsdikdə buna etinasız yanaşdı. Tehran şəhərindən sürgün edildikdə öz sözünün üstündə dayandı və nəhayət, qürbətdə öz yaxınları və dostlarından uzaqda dünyasını dəyişdi".

Avam camaatın söylədiyinə görə, onu bir qadının eşqi məhv etmişdi. Düşüncəli insanlar isə deyirdilər ki, həyata eşq bəsləmək onu ölüm ayağına qədər aparmışdı.

Onun ölüm xəbəri Tehran şəhərində yayıldıqda dostları və yaxınları bir-biri ilə qulaq pıçıltısı ilə danışırdılar. Deyirdilər ki: "Daha bir nəfər ürək tutmasından vəfat etdi!" Çünki qəzetlər, adətən, zindan və sürgündə ölən hökumət qurbanlarını belə bir xəstəlik ucbatından vəfat etməsi ilə bağlı xəbərlər tirajlayırdılar.

Ola bilsin ki, Makan ustadın hökumət daxilində müəyyən çəkiyə sahib olan dostlarından birinin təhriki, ya da hökumətin öz təşəbbüsü ilə rəssamın xalq arasın-

dakı mənəvi nüfuzunu nəzərə alaraq, baş vermiş cinayəti ört-basdır etmək üçün ona sayğı göstərmək və adını uca tutmağa qərar vermişdilər. Onlar ən güclü düşmənlərindən birinin sıradan çıxdığına görə, onun ölümündən maksimum istifadə etməyə qərar vermiş, bununla da bir fərari şəhər polisinin dünyaya saldığı səs-sədadan sonra dünyanın ustadın İranda qətlə yetirilməsini yəqin etməsindən ehtiyatlanırdılar. Hər halda "Sepəhsalar"[1] məscidində hüzr məclisi keçirib cənazəsini layiqli protokol əsasında Tehrana gətirdilər. Daha sonra Həzrət Əbdül-Əzim Kompleksində[2] torpağa tapşırdılar. "Əmir Kəbir" Liseyində xüsusi tədbir keçirib, Hazırlıq Məktəbinin salonunda müəllimin əl işlərindən ibarət sərgi təşkil etdilər. Beləliklə də, dövlət özünü incəsənət tərəfdarı kimi göstərməyə çalışdı.

Lakin xalq aldanmırdı. Onlar diktatorun göstərişi ilə tikilmiş möhtəşəm universitet binasını ölkənin müstəqilliyi əleyhinə və ingilislərin xeyrinə saydıqları bir halda rəssamın qürbətdə ölümünü və eləcə də belə bir saxtakarlıqla təşkil edilmiş tədbirləri adi və təbii olaraq qarşılamırdılar.

Tehranın ogünkü boğuntulu günündə öndə olan deputatlar, nazirlər, briqada generalları, general-mayorlar və eləcə də özlərini xalqın xidmətçisi kimi göstərən

---

[1] Tehran əyalətinin Rey şəhərində yerləşən məşhur ziyarətgah kompleksidir (Mütərcim).

[2] 1879-cu ildə Nasirəddin Şah Qacarın dövründə İranın Baş vəziri Mirzə Hüseyn Sepəhsaların göstərişi ilə tikintisinə başlanmış və 1884-cü ildə istifadəyə verilmiş, eyni halda Tehran şəhərinin ən qədim və böyük məscidlərindən birinin adıdır. (Mütərcim).

saxtakarlar sərginin açılış mərasimində iştirak etdilər və üstəlik bəh-bəh deyərək getdilər. Sərginin bir ay müddətində açıq olacağına qərar verilmişdi. İlk gündə yalnız ustad rəssamın tələbələri, dostları və sevənləri sərgiyə qatılaraq onun əsərləri və xüsusilə də Kəlatdan[1] gətirilmiş və eyni zamanda müəllimin sonuncu əsəri sayılan tablonun qarşısında dayanır, rəng və xətt vasitəsilə insani duyğuların bəyanı, təcəssüm bacarığı və incəsənətin möhtəşəmliyi qarşısında hörmətlə baş əyirdilər.

Mədəniyyət Nazirliyi hər gün günortadan sonra hökumət rəhbərlərinin abrı və heysiyyətini qorumaq məqsədi ilə orta məktəb şagirdlərini dəstə-dəstə sərgiyə göndərirdi. Lakin ikinci həftədən etibarən rəssamın əl işlərindən ibarət sərgi ümumi və milli çalar alaraq xalqın girişi üçün azad elan edildi. Beləliklə də, xalq dəstə-dəstə sərgiyə gedərək özləri Makanın əsərlərinə tamaşa edirdilər. Onlar rəssamın gözəl rəngli və möhtəşəm rəsm əsərlərində öz təsvirlərini görür, xüsusilə də öz dəst-xətti ilə altından "Onun gözləri" sözünü yazdığı rəsm əsəri qarşısında dayanır və ona diqqətlə baxırdılar. Onlar bir-biri ilə mübahisə edir və baxışları ilə hər bir şeyi deyən, eyni halda hüzurla hər kəsə baxan gözlərin sirrini tapmağa çalışırdılar. Onlar bu gözlərin hansı sirri gizlətdiyini və hansı şeyi cilvələndirdiyini özlərindən soruşurdular. Beləcə hər kəs anladığı şəkildə bir şeylər söyləyir, lakin fikirlər müxtəlif olduğundan mübahisə yaranırdı.

[1] Paytaxtdan çox uzaq olan və İranın şərq bölgəsində yerləşən ucqar bölgələrdən biri olmuşdur. Kəlat hal-hazırda İranın Rəzəvi Xorasan əyalətinin şəhərlərindən biridir (Mütərcim).

Sərginin ikinci həftəsinin sonunda izdihamın yüksək səviyyəyə çatması ilə əlaqədar Dövlət və Şəhər Polisi Təşkilatı tamaşaçı kütləsinin çoxaldığını görüb, bunu "narazı xalqın toplum formasında həyata keçən və hökumətin ziyanına olan bir aksiya" kimi qələmə verərək üçüncü həftənin ilk günlərində sərgini tətil etdilər.

Əslində, "Onun gözləri" tablosu sadə bir qadının üz təsvirindən başqa bir şey deyildi. Orada sanki saçları ərimiş qır kimi çiyinləri üzərinə axmış bir qadının üz təsviri var idi. Bu surətin hər bir detalı insanı məhv edirdi. Onun burnu, ağzı, yanaqları və alnı tünd rəngdə göstərilmişdi. Sanki rəssam bu surət sahibinin kənar dünyada mövcud olmadığı və yalnız gözlərinin onun xatirəsində əbədi qaldığını söyləmək istəyirdi. Onun gözləri çox tutarlı bir tərzdə adama baxırdı. Onlarda xüsusi diqqət müşahidə olunmasa da, öz sahibi ilə tamaşaçı arasında mövcud olan pərdəni parçalayır və oxun ucu kimi insan qəlbini sivirirdi. Görən bu gözlər sonrakı anda ağlamalıdırmı? Yaxud acı gülüşlə sıçrayış etməlidirmi? Lakin dodaqlarının ətrafında heç bir gülüş əlaməti hiss edilmirdi. Görən, bu gözlər gülmək və tamaşaçını həyata şövqləndirmək, yaxud ürək yorğunu olanı çərlətmək üçün beləcə dar və uzanmış tərzdə təsvir edilibmi? Görən, bu gözlər dünyadan əl çəkmiş ismətli bir qadına, yoxsa özünə xüsusi bir ov axtaran ehtiraslı birinə aiddirmi? Bəlkə, onlarda hər bir şey gizlənmişdir? Görən, bu gözlər müəyyən bir ovu tələyə salmaq istəyirdimi? Yoxsa nəyisə tələb və təmənna edirdi? Görən, bu gözlər sədaqətli və səmimi idi, yoxsa incidən və dikbaş? İffətlimi, əxlaqsızmı? Etinasızmı,